## İdman xəbərləri

# Qəbələdən böyükhesablı qələbə

Türkiyədə təlim-məşq toplanışında olan "Qəbələ" mövsümün ikinci yarısına hazırlıq çərçivəsində növbəti oyununu keçirib. Komandamız Antalyadakı ikinci yoxlama görüşündə Rusiya təmsilçisi "Çayka" ilə üz-üzə gəlib.



Qarşılıqlı hücumlarla başlayan görüşdə üstünlüyü ələ alan "Qəbələ" erkən qol vurub. 14-cü dəqiqədə İvitsa Juniç hesabı açıb. İlk yarıda "qırmızı-qaralar" daha bir dəfə fərqlənib. Rövlan Muradov fasiləyə 10 dəqiqə qalmış rəqib qapısına yol tapıb. Ülvi İsgəndərov fərqi 3 topa çatdırıb. Bu, matçda sonuncu qol olub və "qırmızı-qaralar" "Çayka" üzərində böyükhesablı qələbə qazanıb–3:0.

"Qəbələ" Antalyada daha iki yoxlama oyununda qüvvəsini sınayacaq. Komandamız yanvarın 22-də Bolqarıstanın "Etar", 25-də bu ölkənin digər təmsilçisi "Dunav" ilə qarşılaşacaq.

# Qəbələdə uşu üzrə respublika turniri keçiriləcək

Yanvarın 25-26-da Qəbələ Olimpiya İdman Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş yeniyetmələr və gənclər arasında uşu üzrə respublika turniri keçiriləcək.

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Uşu Federasiyasının birgə təşkilatçılığı ilə keçiriləcək yarışa 200-ə yaxın idmançı qatılacaq.

Turnirdə Bakı, Gəncə, Göyçay, Mingəçevir, Şəki və Ağcabədi klubları iştirak edəcəklər.

Bu yarışlar martda keçiriləcək uşu üzrə Azərbaycan çempionatına hazırlıq xarakteri daşıyır.

«Qəbələ»

# Qarabaşağın faydaları

Diyetoloqlar qarabaşağı buğdaya sağlam alternativ hesab edirlər. Buna səbəb digər dənli bitkilərlə müqayisədə onun tərkibindəki antioksidantların daha yüksək və kalorisinin aşağı olmasıdır. Geniş yayılan dənlilərə nisbətən qarabaşağın tərkibi manqan, maqnium və dəmir kimi minerallarla daha zəngindir.

Qarabaşağın tərkibində ürək üçün faydalı olan rutin və sellüloz kimi birləşmələr mövcuddur və qan dövranının yaxşılaşdırılmasında istifadə olunan güclü oksidant - rutin üçün əla mənbədir.

Qarabaşağın qida lifləri həzm sisteminin yaxşılaşmasına kömək edir.

Bu dənli bitki mürəkkəb karbohidratların mənbəyidir. Karbohid-



ratlar gec həzm olunur, bu da öz növbəsində qanda şəkərin miqdarına daha az təsir göstərir. Bu isə şəkərin miqdarının tədricən artması və sabitliyin daha uzun müddətə qorunub saxlanması ilə nəticələnir. Sellülozla zəngin olan pəhrizlər qlikemik nəzarəti gücləndirməyə və orqanizmdə insulinin yüksək miqdarını azaltmağa yardım edir.

Bədən kütləsinin tənzimlənməsində zülal əsas rol oynayır. Tədqiqatçılar bunu toxluqla və ya yeməkdən sonra doyma hissi ilə əlaqələndirirlər. Toxluq hissini artıran qarabaşaq daha uzun müddətə aclığın qarşısını almağa, qəbul edilən ümumi kalorini səmərəli şəkildə azaltmaq imkanına malikdir.

# Maraqlı faktlar

*●Dövlət bayrağı düzbucaqlı şəklində olmayan yeganə ölkə Nepaldır.*

*●Ən güclü əzələ çeynəmə əzələsidir. Sağ və sol çeynəmə əzələlərinin ümumi gücü 400 kq-dır.*

*●Uşaq bədənində 300 sümük olur, böyük insanda 206. Sümüklərə 639-dan çox əzələ birləşib.*

*●Asqıran zaman insan havanı saatda 160 km sürətlə içəri çəkir.*

*●İnsan beyni 85 faiz sudan ibarətdir. Tərkibində 100 milyarda yaxın neyron var. Onların hər biri 10 min başqa neyronlarla birləşir.*

*●İnsan bədəninin ən möhkəm hissəsi diş emalıdır.*

*●Milçəyin sürəti saatda 8 km-dir.*

*●Fil tullana bilməyən yeganə məməlidir.*

*●Kenqurular geriyə doğru gedə bilmir.*

*●Pişiklər şirini hiss etmir.*

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam kənd (indiki qəsəbə) sakini **Bəşirov Firidun Bayramalı oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0027 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

**Ağamalıyev Məhəmməd Hüseyn oğluna** məxsus YMZ-6L traktoruna verilmiş TŞ 021018 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Oğuz Rayon Dövlət Notariat Kontoru tərəfindən 11 iyul 2012-ci ildə **Səmədov Tural Tahir oğluna** verilmiş ƏN111 seriyalı 761194 nömrəli **etibarnamə** və Daxili İşlər Nazirliyi DYPİ-nin 6 saylı RQSM tərəfindən 10 mart 2000-ci ildə KAMAZ-53212 markalı nəqliyyat vasitəsinə verilmiş AA seriyalı 142952 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 05 fevral 1999-cu il tarixli 03 saylı qərarı ilə Nic qəsəbə (əvvəlki kənd) sakini **Cələbiyev Elburus Fərrux oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 199 nömrəli (kod 40600068) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi ücün etibarsız sayılır.

DİN BDYPİ-nin Xaçmaz Rayon İmtahan Qeydiyyat Şöbəsi tərəfindən Xaçmaz şəhər sakini **Əliyev Şahin Şahı oğluna** məxsus 1990-cı ildə buraxılmış 27 BH 704 dövlət nömrə nişanlı VAZ 21063 markalı avtonəqliyyat vasitəsinə 19 fevral 2009-cu il tarixdə verilmiş AB seriyalı 224403 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

DİN BDYPİ-nin Şəki şəhər Rayonlararası Qeydiyyat-İmtahan Şöbəsi tərəfindən Qəbələ şəhər sakini **Kərimov Nabir Nadir oğluna** məxsus Hyundai Assent markalı 36 BH 898 dövlət nnömrə nişanlı avtomobilə 17 iyun 2016-cı il tarixdə verilmiş AC seriyalı 732422 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Yenikənd kənd sakini **Abdullayev Xeyirbəy Seyfəddin oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0099 nömrəli (kod 40607048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 07 noyabr 1997-ci il tarixli 19 nömrəli qərarı ilə Böyük Əmili kənd sakini **Şirinov Tehran Şükür oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 235 nömrəli (kod 40604028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

DİN BDYPİ Qeydiyyat-İmtahan Şöbəsi tərəfindən «Gilan» MMC-yə məxsus DAEWOO BS 090 markalı 99 JE 088 dövlət nömrə nişanlı **avtobusa** 07 dekabr 2013-cü il tarixdə verilmiş AC seriyalı 107131 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsz sayılır.

DİN BDYPİ Qeydiyyat- İmtahan Şöbəsi tərəfindən «Gilan» MMC-yə məxsus DAEWOO BS 090 markalı 99 JE 099 dövlət nömrə nişanlı **avtobusa** 07 dekabr 2013-cü il tarixdə verilmiş AC seriyalı 107132 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən 8 dekabr 2016-cı ildə **Çolaxari Boris Alikiyə və ailə üzvlərinə** verilmiş RX seriyalı 0959627 nömrəli (reyestr nömrəsi 406013063226 qeydiyyat nömrəsi 1916008483) Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən **çıxarış** və həmin çıxarışa dair **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının DƏDRX-nin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 09 fevral 2009-cu il tarixdə **Vəliyev Eldar Rüstəm oğluna** verilmiş MH seriyalı 0012893 nömrəli (reyestr nömrəsi 406013006354, qeydiyyat nömrəsi 1909000441) və MH seriyalı 0012894 nömrəli (reyestr nömrəsi 406013006355, qeydiyyat nömrəsi 1909000442) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarışlar** itdiyi üçün etibarsız sayılır.

# İlk elektrik mühərrikli təyyarə havaya qalxıb

Dünyada ilk elektrik mühərrikli təyyarə Kanadada havaya qalxıb. Layihənin elektrik mühərrikini "MagniX" şirkəti hazırlayıb.

Səhər saatlarında havaya qalxan "ePlane" Riçmond səmasında ilk uğurlu kommersiya uçuşunu yerinə yetirib. Belə ki, "de Havilland Canada DHC-2 Beaver" markalı 6 yerli təyyarədə 750 at gücünə malik olan "magni500" mühərriki quraşdırılıb. Təyyarəni "Harbour Air" aviaşirkətinin baş direktoru və sahibi Qreq Makduqall idarə edib.

Aviaşirkət tezliklə elektrik mühərriki ilə uçan təyyarələrin motor sisteminin sertifikatlaşdırma prosesini həyata keçirməyi planlaşdırır. Mühəndislər mühərrikin gücünün artırılması üzrə yeni uğurlar əldə olunduğunu, lakin batareya sisteminin təkmil olmadığını qeyd edirlər. Bu səbəbdən təyyarə 160 kilometrdən uzağa uça bilmir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin kollektivi müəllim **Eyvazov Ziya Tarverdi ogluna** anası

**SÜDABƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu sabiq iş yoldaşı **Əddin Həsənova** dayısı

**ƏŞRƏF ŞƏFİYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərinə şərik olur.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2020-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir
Yarımillik abunə qiyməti 15 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56



Redaktor
Varis Yaqubov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Son dəqiqə» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1159*